# *Süleyman HÜSEYNOV-75*



Hörmətli Süleyman müəllim!

Sizi - istedadlı şair, yazıçı, publisisti 75 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz 1949-cu ildə Lənkəran şəhərinin Boladi kəndində anadan olmusunuz. 1966-cı ildə Boladi kənd orta məktəbini bitirib, Sumqayıt şəhərində məskunlaşmısınız. Azərbaycan Neft və Kimya İnstitutunda təhsil almısınız. Əmək fəaliyyətinə başladığınız Sumqayıt Superfosfat zavodunda direktor vəzifəsinə qədər yüksəlmisiniz. Şəhər Sovetinin deputatı seçilmisiniz. SSRİ Nazirlər Soveti yanında Xalq Təsərrüfatı Akademiyasını (indiki Rusiya Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyası) fərqlənmə diplomu ilə bitirmisiniz.

Siz bədii yaradıcılığa ötən əsrin 80-cı illərindən başlamısınız. Hələ orta məktəbdə oxuduğunuz vaxtlarda yazdığınız şeir və məqalələrlə ətrafınızda maraq doğurmuşsunuz. Sonralar "Kimyaçı", "Sosialist Sumqayıtı", "Kommunist Sumqaita", "Exo Sumqaita" qəzetlərində çap olunmuş şeirləriniz, hekayələriniz və publisistik yazılarınızla oxucuların diqqətini cəlb etmisiniz. Respublika mətbuatı ilə yanaşı, Rusiya, Türkiyə, Özbəkistan mətbuatında da yaradıcılığınıza geniş yer verilmişdir. 1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz.

Siz "Bir həzin nəğmə", "Qəlb harayım", "Öz yolumla gedirəm", "Taleyim mənim", "Qəriblik nəğmələri", "Tale şəhərim" adlı şeirlər, "Ana baxışları" adlı hekayələr və "And" romanı kitablarının müəllifisiniz.

Vətənpərvərlik mövzusunda yazılmış "And" romanınız Mədəniyyət Nazirliyi tərəfindən təkrar çap edilmiş və respublika kitabxanalarına paylanmışdır. Eyni zamanda bu romanınız rus dilinə tərcümə edilərək AYB-nin Moskva bölməsində təqdimatı keçirilmişdir.

Bununla yanaşı, sizin rus dilində "Projit bı tak", "Yesli ya ne vernus", "Meç pravosudiya" kitablarınız çap edilib.

Zəhmətiniz dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Siz Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalına , "Qılınc və qələm" Beynəlxalq Ədəbi mükafatına, AYB tərəfindən Azərbaycan Respublikası Prezidentinin yazıçı və şairlər üçün ayırdığı bir illik təqaüdə layiq görülmüsünüz.

Hörmətli Süleyman müəllim, sizi 75 illik yubileyiniz münasibətilə sizi bir daha təbrik edir, cansağlığı, uzun ömür, yaradılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**